UOT 336.02 (479.24)

# Modernləşdirmə və aktiv vergi siyasəti



**Musayev Akif Fərhad oğlu***
AMEA-nın müxbir üzvü,
iqtisad elmləri doktoru, professor

## Xülasə

*Tədqiqatın məqsədi* – ölkənin iqtisadi inkişafını tənzimləmək məqsədi ilə vergi siyasətinin formalaşmasının təhlili.

*Tədqiqatın metodologiyası* – sistemli yanaşma, müqayisəli təhlil.

*Tədqiqatın nəticələri* – iqtisadiyyatın modernləşməsinin əsas prinsipi kimi passiv vergi siyasətindən aktiv vergi siyasətinə keçilməsinin zəruriliyi əsaslandırılmışdır.

*Tədqiqatın məhdudiyyətləri* – xarici təcrübəni təhlil etməklə modernləşmədə aktiv vergi siyasətinin rolu və onun modernləşdirilməsi məsələləri elmi cəhətdən daha geniş araşdırma tələb edir.

*Tədqiqatın praktiki əhəmiyyəti* – müəyyən mərhələdə iqtisadiyyatın inkişafı üçün passiv vergi siyasətinin təhlil edilməsinin vacibliyi, həmçinin passiv vergi siyasətindən aktiv vergi siyasətinə keçilməsinin əsaslandırılması.

*Tədqiqatın orijinallığı və elmi yeniliyi* – sosial və texnoloji modernləşmə konsepsiyalarının inkişafında innovativ modellərin istifadəsi.

**Açar sözlər:** *aktiv vergi siyasəti, passiv vergi siyasəti, institutsional modernləşmə, texnoloji modernləşdirmə, "yaşıl vergi sistemi".*

## 1. Giriş

Müstəqil Azərbaycan Respublikası inkişaf etmiş bir çox ölkələrin yüz illərlə keçdiyi tarixi mərhələni son 20 ildə uğurla başa vurmuşdur. Hazırda yüksək inkişaf və tərəqqi mərhələsinə qədəm qoymuş Azərbaycan bu mərhələyə qısa zaman kəsiyində asan yolla çatmamışdır. Keçmiş sovet imperiyasının dağılmasından sonra müstəqilliyin bərpa olunduğu ilk illərdə hərc-mərcliyin və anarxiyanın baş alıb get-

* Azərbaycan Respublikası Vergilər Nazirliyi. AZ 1073. Bakı şəhəri, Landau küç., 16.
Akif.Musayev@taxes.gov.az.



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

diyi, iqtisadi böhran və hiperinflyasiyanın dərin xarakter aldığı, suverenliyin itirilməsi təhlükəsinin yarandığı bir dövrdə ölkədə siyasi və iqtisadi sabitliyi bərpa etmək, müstəqil respublikanın idarəetmə strukturlarını yaratmaq, ölkəni inkişaf yoluna çıxarmaq ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında qətiyyətli siyasi islahatların həyata keçirilməsi sayəsində mümkün olmuşdur [1].

Beləliklə, öz həqiqi dövlət müstəqilliyinə qovuşmuş Azərbaycanın milli mənafeləri, qlobal iqtisadi meyillər, geosiyasi reallıqlar, potensial imkanları və digər vacib amillər nəzərə alınmaqla milli inkişaf doktrinası hazırlandı. Həyata keçirilən təxirəsalınmaz tədbirlər nəticəsində sabitləşmə və dirçəliş mərhələsi başlandı. Nəhayət, keçid dövrünün başa çatması və yeni iqtisadi inkişaf səviyyəsinə keçid mərhələsinə qədəm qoyan ölkəmizin səmərəli bazar mexanizminə malik özünəməxsus iqtisadi inkişaf modeli formalaşmışdır. Dövlət özünün tənzimləyici funksiyalarından geniş istifadə etməklə biznesi və cəmiyyətin bütün təbəqələrini yüksək həyat səviyyəsini təmin etməyə imkan verən vətəndaş cəmiyyətinin qurulmasında səfərbər etməyə nail olmuşdur.

## 2.Modernləşdirmə

Hazırkı tərəqqi mərhələsində yüksək siyasi iradə nümayiş etdirilərək möhtərəm Prezident cənab İlham Əliyev tərəfindən verilən tapşırığın icrası olaraq, qloballaşma və kompromissiz rəqabət şəraitində, dünyada mövcud olan ən mükəmməl innovativ modellər əsasında müasir tələblərə cavab verən institutsional, sosial və texnoloji modernləşmə konsepsiyasının hazırlanmasına başlanılmışdır.

Qeyd etmək lazımdır ki, modernləşdirmənin tərkib hissələri qarşılıqlı əlaqəlidir. Əgər institutsional modernləşdirmə müvəffəqiyyətlə mülkiyyət hüququ, rəqabət, müqavilələrin qorunması və s. kimi bazar münasibətlərinə dəstək verirsə, texnoloji modernləşdirmə intensiv investisiya qoyuluşlarını, innovasiyanı və s. təmin etməklə iqtisadi inkişafa şərait yaradır.

Sosial modernləşmə isə informasiya yayımını təmin etməklə, biznes iştirakçıları arasında partnyorluq münasibətlərini möhkəmləndirməklə, fərdi davranışı ümumi sərvətə çevirməklə, resursları səfərbər etməklə cəmiyyətin ümumi məqsədlərinə xidmət edir.

Sosial kapital resursundan istifadə etmədən mövcud resurslardan istifadə etməklə fərdi və ictimai faydalılığı uzlaşdırılmadan ən yaxşı məqsədə, yəni Pareto-optimallığa nail olmaq mümkün deyil. Sözsüz ki, mütərəqqi iqtisadi mühit şəraitində iqtisadi münasibətlərin mürəkkəbləşməsi və formaca dəyişməsi iqtisadi rıçaqların da təkmilləşməsini labüd etmişdir. Cəmiyyətin müxtəlif təbəqələri modernləşdirməni müxtəlif formalarda başa düşür və izah etməyə çalışırlar.

İqtisadçı alimlərin nöqteyi-nəzərinə görə modernləşmə xammal iqtisadiyyatının innovasiya iqtisadiyyatına transformasiyasını təmin etməklə inkişaf etmiş ölkələrlə müqayisə oluna bilən yüksək inkişaf səviyyəsini təmin etməlidir.

Politoloq və sosioloqların nöqteyi-nəzərinə görə modernləşdirmə institutsional dəyişiklik, demokratik institutların inkişafı, cəmiyyətin sosial müdafiə olunmasının təmini, bərabərsizliyin və yoxsulluğun aradan qaldırılması deməkdir.

İşgüzar dairələr isə modernləşdirməni investisiya və biznes mühitinin yaxşılaşdırılması kimi başa düşürlər.

Qeyd etmək lazımdır ki, sosial-iqtisadi modernləşdirmə prosesi uzun proses olub (*Fransada, Almaniyada, Tayvanda, Cənubi Koreyada, Malaziyada və digər ölkələrdə 30-50 il*) cəmiyyətin bütün sferalarını, o cümlədən iqtisadi, siyasi qanunvericilik və sosial münasibətlərin hamısını əhatə edir. Ona görə də modernləşdirmənin məqsədlərinin dəqiq müəyyən olunması çox vacibdir [2].

Eyni zamanda tarixi və xarici təcrübə göstərir ki, bu prosesə təkcə dövlətin ayrı-ayrı nümayəndələrinin, biznesin və əhalinin bir hissəsinin hazır olması kifayət deyil, bütövlükdə cəmiyyətin bu ümumi məsələni başa düşməsinin böyük əhəmiyyəti var.

Modernləşdirmə - sadəcə olaraq iqtisadiyyatın texnoloji yenidən qurulması deyil, ictimai və iqtisadi, qarşılıqlı əlaqəli dəyişmələr prosesidir. Əslinə qalsa modernləşdirmə - çoxdan gedən və zəif inkişaf etmiş ölkələrin əldə etmək istədiyi bir çox inkişaf etmiş ölkələr üçün xarakterik olan sosial dəyişmələr prosesini xarakterizə edən müasir termindir. Bu mənada modernləşmiş cəmiyyətdə daimi inkişaf məqsəd, innovasiyaya tələb isə davamlı inkişafın inkar edilməz şərtidir.

Ona görə də modernləşdirmənin yuxarıdan və ya aşağıdan, sürətli və yumşaq formaları qiymətləndirilməli, nəhayət ən səmərəlisi seçilməlidir.

Nəticədə, dövlət, biznes və istehlakçılar arasında qarşılıqlı etibar və kooperativ maraqlar təmin edilməlidir. Yalnız institusional islahatlar və iqtisadi münasibətləri tənzimləyən sosial normaların aktivləşdirilməsi vətəndaşların təşəbbüskarlığının artırılması resursları XXI əsrin qlobal çağırışlarına cavab verə bilər.

### 2.1.Modernləşdirmənin təməl prinsipləri

Modernləşmə prosesində cəmiyyətin birliyi, dövlətin, biznesin, əhalinin, KİV-in, ictimai təşkilatların iştirakı ilə modernləşdirmənin ideoloji konsepsiyasının hazırlanması mühüm əhəmiyyət kəsb edir.

Əhalinin mədəni xüsusiyyətlərini özündə əks etdirməyən və milli ideyalara söykənməyən modernləşdirmə də lazımı nəticəni verməz. Beynəlxalq təcrübədə özünü ən proqressiv inkişaf modeli kimi sübut etmiş modernləşmə formalarında da yerli milli xüsusiyyətlər qabarıq şəkildə özünü göstərir. Ona görə də modernləşmə konsepsiyası əhalinin mentalitetini, psixologiyasını və sosial-iqtisadi imkanlarını nəzərə almalıdır. Bununla bağlı əhalinin demoqrafik tərkibi, diferensiasiyası, yeniliyə meyillilik xüsusiyyətləri, birgə və ayrı yaşama istəkləri, riskə meyillilik və s. sosial-psixoloji amillər qiymətləndirilməli və istiqamətləndirilməlidir. Burada ağılların (*mütərəqqi düşünən alimlərin*) xaricə axını və xaricdən cəlb tendensiyası nisbəti nəzarətdə saxlanılmalı və xalqımızın vətənə, torpağa, ailəyə bağlılıq xarakterindən istifadə edilməlidir.

İndiki şəraitdə kənarda təhsil almaq, elmi araşdırmalarla məşğul olmaq kimi meyillərdən çəkinmək lazım deyil. Yuxarıda qeyd olunmuş bağlılıq xüsusiyyətləri gec-tez həmin vətəndaşlarımızın qayıdıb ölkəmizin inkişafı naminə çalışacaqlarına əminlik yaradır.

İndidən xaricdə elmin, texnologiyanın bu və ya digər sahələrində çalışan tanınmış soydaşlarımızın və onların davamçılarının vətənlə əlaqəsi hər vasitə ilə təşkil edilməlidir. Bu məqsədlə ölkələr arasında işçi qüvvəsinin rahat hərəkəti üçün kompleks tədbirlər həyata keçirilməlidir ki, bu tədbirlər çərçivəsində yüngülləşdirilmiş viza rejimi, ikili vətəndaşlıq, qazanılmış vəsaitlərdən səmərəli istifadə mexanizmi və s. yaradılmalıdır. Yüksək ixtisaslı, xarici kadrların ölkəyə cəlbini və yaradıcılıqla məşğul olma imkanlarını təmin edən məqsədli dövlət proqramının qəbul olunmasının vaxtı artıq çatmışdır.

Cəmiyyətin indiyə qədər topladığı sosial kapitalın çox qiymətli inkişaf resursu kimi istifadə olunması da modernləşdirmənin təməl prinsiplərinin tərkib hissəsidir. İqtisadi nöqteyi nəzərdən sosial kapital ümumi məqsədə çatmaq üçün cəmiyyətin birgə fəaliyyətindən ibarətdir. Sosial kapitalın qeyd olunan məqsədə səmərəli xidmət etməsi üçün sosial şəbəkə, davranış normaları və iştirakçılar arasında etibar təmin olunmalıdır.

Sosial kapitalın bu üç fundamental tərkib hissəsi üzvi surətdə bir-biri ilə bağlı olub modernləşdirmənin təmin olunması üçün müvafiq institutların tənzimləyici alətlərindən biridir [3].

Modernləşmənin bir seqmenti olan sosial şəbəkə iştirakçılar arasında etibarı möhkəmləndirir, sosial yönümlü normaların yayılması və möhkəmlənməsinə şərait yaradır, etibarlılıq isə sosial şəbəkəni və əlaqələri genişləndirir. Sosial şəbəkənin genişləndirilməsi, sosial yönümlü normaların hazırlanması və cəmiyyətdə etibarlılığın təmin olunması modernləşmə prosesinin əsas prinsiplərindən biri kimi aktiv vergi siyasətini təmin edən əsas amillərdəndir.

Müasir mərhələdə, xüsusilə sonuncu qlobal maliyyə böhranının nəticələrinin təhlili ilə məşğul olan iqtisadçılar sosial kapitalı mövcud iqtisadi modellərdə çatışmayan element kimi dəyərləndirirlər.

## 3.Aktiv vergi siyasətinə keçidin labüdlüyü

Azərbaycanın iqtisadi inkişaf modelinin strateji istiqamətlərindən olan vergi sistemi mobilliyi və mükəmməl inzibatçılığı ilə milli iqtisadiyyatın keçid mərhələsinin uğurla başa çatmasına öz layiqli töhfələrini vermişdir. Eyni zamanda, sürətlə dəyişən dünyada bu meyilləri gələcək üçün də qorumaq, qabaqcıllarla ayaqlaşmaq, bilik və texnologiyaya əsaslanan iqtisadiyyat qurmaq naminə dövlətimizin bu proseslərdə iştirakçı subyektlərə bütün vasitələrlə yardımçı olması mühüm bir prinsip olaraq yerinə yetirilir.

Keçid iqtisadiyyatının iqtisadi xüsusiyyətlərindən irəli gələrək ötən illər ərzində ölkəmizdə passiv vergi siyasəti həyata keçirilmişdir ki, bu siyasətə mənfəət, əlavə dəyər, sosial və gəlir vergilərinin dərəcələrinin aşağı salınmasını aid etmək lazımdır. Dövlət bu tədbirləri həyata keçirməklə əvvəlcədən vergi ödəyiciləri üzərinə heç bir inzibati öhdəlik qoymamış və ümumi şəkildə vergi güzəştlərinin verilməsini təmin etmişdir. Hökumət bir sıra vergi islahatları həyata keçirmişdir ki, bu da Azərbaycanı beynəlxalq səviyyədə rəqabət qabiliyyətli vergi sistemi ilə təmin etmişdir.

Qeyd etmək lazımdır ki, aktiv vergi siyasətinin əsas prinsiplərinin gözlənilməsi məqsədilə vergi dərəcələrinin azaldılması hesabına vergi yükünün aşağı salınması zamanı təsərrüfat subyektlərinin sərəncamında olan əlavə vəsaitlər təkrar istehsalın genişləndirilməsinə yönəldilməlidir. Bununla əlaqədar, vergi ödəyiciləri qarşısında konkret məqsəd və inzibati öhdəlik qoyulmadan investisiya fəaliyyətinin stimullaşdırılması vergilərin sayının azaldılması və vergi dərəcələrinin aşağı salınması siyasəti kimi aparılırsa, bu vəsaitin əsas hissəsi mənimsənilir və yalnız onun az hissəsi inkişafa yönəldilir [4].

İqtisadi inkişafın müasir mərhələsində passiv vergi siyasətindən aktiv vergi siyasətinə keçilməsi, bu məqsədlə azad (*xüsusi*) texnoloji iqtisadi zonaların yaradılması, innovasiya və bilik iqtisadiyyatının inkişafının stimullaşdırılmasının zəruriliyini nəzərə alaraq aktiv vergi siyasəti və modernləşdirmənin üstün prinsiplərinin həyata keçirilməsi olduqca vacibdir.

### 3.1.İqtisadi inkişaf modelində aktiv vergi siyasəti

Hər bir iqtisadi nəzəriyyənin əhəmiyyəti ilk növbədə onun praktik tətbiqi dairəsinin hüdudları ilə müəyyən olunur. Əgər iqtisadi nəzəriyyə real həyatda baş verən hadisələrin səbəblərini və ona təsir edən amilləri, iqtisadi proseslərin inkişaf qanunauyğunluqlarını izah edə bilirsə, onda onun əsasında yaranan iqtisadi inkişaf modeli uğurlu olur, davamlı sosial-iqtisadi inkişafı təmin edir. İqtisadi inkişaf modeli iqtisadi prosesləri adekvat əks etdirməli və cəmiyyətdə baş verən proseslərlə əlaqəli şəkildə daimi olaraq modernləşdirməlidir. Cəmiyyətdə baş verən sosial-iqtisadi proseslərin əsas xüsusiyyəti ondan ibarətdir ki, onlar dinamik xarakter daşıyırlar. Bu gün əhəmiyyətli olan modellər müəyyən vaxtdan sonra sosial-iqtisadi proseslərin inkişaf dinamikası ilə bağlı modernləşdirilmirsə, onda o əhəmiyyətini itirir və hətta iqtisadi artımın təmin edilməsində əngəllər yaradır.

Son illər müasir iqtisadi və sosial elmlərdə modernləşdirmə nəzəriyyəsinə olan maraq artmışdır. İqtisadi siyasət və onun əsas tərkib hissələrindən biri olan büdcə-vergi siyasəti sahəsində təkmilləşdirmə, sadəcə olaraq inkişaf etmiş dünya ölkələrinin təcrübəsində mövcud olan innovasiyaların, texnologiyaların istifadəsini yox, daxili və xarici amillər nəzərə alınmaqla onların modernləşdirilməsini və sosial-iqtisadi proseslərlə əlaqəli şəkildə tətbiqini nəzərdə tutur. İqtisadi proseslərin və xüsusilə vergi siyasətinin əsas xüsusiyyətlərindən biri ondan ibarətdir ki, onun obyekti və

subyekti intellektə, düşünmə qabiliyyətinə malik, müxtəlif vəziyyətlərdən asılı olaraq öz strategiyasını və adaptasiyasını dəyişə bilən insan cəmiyyətidir. Aktiv vergi siyasətinin aparılmasında ikililik, yəni duallıq prinsipi mövcuddur. Vergi siyasətini həyata keçirən subyektlər-insanlar, eyni zamanda, onun əsas məqsədinə və obyektinə çevrilirlər. Aktiv vergi siyasətinin əsas məqsədi son nəticədə iqtisadi inkişafın təmin edilməsindən, əhalinin həyat səviyyəsinin yüksəldilməsindən , onun maddi rifahının yaxşılaşdırılmasından, cəmiyyətin müxtəlif təbəqələri arasında sosial partnyorluq prinsipinin formalaşdırılmasından, vətəndaş cəmiyyətinin yaradılmasından və daha yüksək modern inkişaf mərhələsinə daxil olmasının təmin edilməsindən ibarətdir. Vergi ödəyiciləri bu gün ödədikləri vergi əvəzinə, gələcəkdə sosial təhlükəsizliyinin əldə olunmasına əmin olmalıdırlar. Yalnız bu duallıq səbəb və nəticə arasında asılılıqların, düz və əks əlaqələrin praktiki sosial-iqtisadi fəaliyyətdə həyata keçirilməsi insan cəmiyyətinin inkişafının təmin edilməsində həlledici rol oynayır.

Müxtəlif mənşəli sosial və siyasi amillər, sosial-iqtisadi diferensiasiya, əhalinin təhsil, səhiyyə, sosial müdafiə sahəsindəki fərqlər və ümumiyyətlə kəmiyyət xarakteristikaları, qeyri-müəyyən faktorlar, eləcə də, dünya iqtisadiyyatında baş verən proseslər, qloballaşmanın sürətlənməsi cəmiyyətin formalaşmasına və onun iqtisadi davranışına təsir etməklə aktiv vergi siyasətinin yeni modernləşdirmə prinsiplərinin tətbiq edilməsi zərurətini meydana çıxarır.

Məsələn, eyni bir iqtisadi texnologiya və ya hər hansı bir iqtisadi model müxtəlif ölkələrdə tətbiq edildikdə tamamilə fərqli, bəzi hallarda isə ziddiyyətli nəticələrə səbəb olur. Bunun əsas səbəbi cəmiyyətdəki mövcud formal və qeyri-formal institutların qarşılıqlı asılılıq əlaqələrinin müxtəlif olması ilə bağlıdır. Məhz bu baxımdan dünya praktikasında bir-birindən fərqli olan və iqtisadi inkişafın təmin edilməsində böyük uğurlar qazanmış müxtəlif iqtisadi inkişaf modellərindən istifadə edilmişdir.

Bunlara misal olaraq Almaniya, Çin, Malayziya, Cənubi Koreya modellərini və digərlərini göstərmək olar. Bu ölkələr son illərdə iqtisadi inkişafı təmin etmiş və yüksək iqtisadi artım templərinə malik olmuşdur. Bütün bu nailiyyətlər iqtisadi proseslərin modernləşdirilməsi, yeni sosial və iqtisadi texnologiyaların tətbiqi nəticəsində mümkün olmuşdur. Qloballaşma proseslərinin genişlənməsi, informasiya və kommunikasiya sektorlarının inkişafı sosial-iqtisadi proseslərin idarə olunmasında yeni modern sistemlərin tətbiqini nəzərdə tutur. Məhz bu amil onu deməyə əsas verir ki, artıq elmin yeni bir sahəsi olan modernləşdirmə nəzəriyyəsi sürətlə inkişaf etməkdədir. İqtisadiyyatın modernləşdirilməsi yuxarıda qeyd olunduğu kimi cəmiyyətin də modernləşdirilməsini tələb edir. Cəmiyyətin modernləşdirilməsi əhalinin həyat səviyyəsinin yüksəldilməsi, onun maddi rifahının, həyat keyfiyyətinin yaxşılaşdırılması ilə yanaşı, cəmiyyətin mədəni modernləşdirilməsini də zəruri edir.

Dünya təcrübəsi göstərir ki, mədəni səviyyəsi yüksək olan ölkələrdə iqtisadi modernləşdirmə daha müvəffəqiyyətlə həyata keçirilir, korrupsiya səviyyəsi və əhalinin vergilərdən yayınma halları aşağı olur.

## 4.Aktiv vergi siyasətində modernləşdirmə xətti

Müasir dövrdə Azərbaycanda modernləşdirmə innovativ iqtisadi inkişafın təmin edilməsində qarşıda duran əsas məsələlərdən biridir. İqtisadi modernləşdirmə biznesin sosial məsuliyyətinin artırılmasını, ətraf mühitin qorunmasının gücləndirilməsini vacib bir məsələ kimi meydana çıxarır. İqtisadiyyatın modernləşdirilməsi aşağıdakı əsas istiqamətləri əhatə etməlidir:

- innovativ sahələrin inkişafının təmin edilməsi;
- cəmiyyətin maraqlarının təmin edilməsi;
- sosial kapitalın yaradılması;
- dünya bazarında rəqabət qabiliyyətli və müqayisəli üstünlüklərə malik istehsal sahələrinin inkişafı;
- iqtisadiyyatın hərtərəfli inkişafı, xüsusilə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi;
- insan inkişafının sürətləndirilməsi və insan kapitalı potensialının yaradılması;
- milli maraqların və sosial-iqtisadi təhlükəsizliyin təmin edilməsi.

Bütün bu strateji istiqamətlərin həlli digər sosial-iqtisadi siyasətlərlə yanaşı, vergi siyasətində də müasir inkişaf hədəflərinin tətbiq edilməsini tələb edir. Qeyd etdiyimiz kimi, respublikamızda həyata keçirilən iqtisadi inkişaf strategiyasının əsas məqsədlərindən biri aktiv vergi siyasətinin həyata keçirilməsi və iqtisadiyyatın modernləşdirilməsi və innovativ sahələrin inkişafının stimullaşdırılmasından ibarətdir.

İqtisadiyyatın modernləşdirilməsi və ona uyğun şəkildə aktiv vergi siyasətinin aparılması yüksək texnoloji, elmi tutumlu sahələrin yaradılmasını, iqtisadiyyatın hərtərəfli və davamlı inkişafının təmin edilməsini tələb edir [5].

Aktiv vergi siyasəti iki əsas funksiyanı - fiskal və tənzimləmə funksiyasını yerinə yetirir. Fiskal siyasətin əsas məqsədi büdcə gəlirlərinin artırılması və iqtisadiyyatın məqsədəuyğun şəkildə inkişafının təmin edilməsidir. Aktiv vergi siyasəti vasitəsi ilə investisiya siyasəti stimullaşdırılmalıdır. İnvestisiya siyasəti və onun effektivliyi qoyulan investisiyalara uyğun mənfəət normasından, faiz dərəcəsindən, vergi dərəcələrindən, makroiqtisadi stabillik səviyyəsindən və digər amillərdən asılıdır. Bir çox ölkələrdə xüsusilə Çində, Malaziyada, Cənubi Koreyada, Sinqapurda yüksək iqtisadi artım templəri aktiv vergi siyasətinin həyata keçirilməsi nəticəsində əldə edilmişdir.

### 4.1.Aktiv vergi siyasətində innovasiya potensialının müqayisəli qiymətləndirilməsi

İnnovasiya potensialına insan kapitalı, resurs, intellektual ehtiyat və digər qeyri-maddi aktivlər daxildir. Müasir tədqiqatçılar haqlı olaraq insan kapitalını iqtisadi inkişafın hərəkətverici qüvvəsi hesab edirlər. İnsan kapitalına yönəlmiş investisiyaların təhlilinə əsasən qeyd etmək olar ki, insan kapitalı sabit gəlirliliyə malik

olduğu halda, fiziki kapital azalan gəlirliliyə malikdir. Təcrübə göstərir ki, yüksək təhsil səviyyəsi daha çox bilik və innovasiya yaradır, texnologiyanın asan mənimsənilməsini təmin edir, endogen ETT-ni stimullaşdırır. Eyni zamanda, insan kapitalı ehtiyatı, həm də institutsional keyfiyyəti təmin edir. Məhz bu halda cəmiyyətdə demokratikləşmə institutlarının formalaşması, mülkiyyət hüquqlarının qorunması ehtimalı artır, dövlətin idarəçilik keyfiyyəti yüksəlir və korrupsiyanın səviyyəsi azalır.

Qloballaşdırma şəraitində modernləşmənin strateji istiqamətlərinin təyin edilməsi zamanı respublikanın iqtisadi sisteminin ənənəvi baza sahələri ilə bağlı problemlər də mütləq təhlil edilməli və prioritet istiqamətlər seçilməlidir.

İnkişaf etmiş dövlətlərin təcrübəsi göstərir ki, heç bir dövlət və iqtisadi sistemlər bütün sahələri eyni səviyyədə modernləşdirmək imkanına malik deyil və qloballaşmanın indiki mərhələsində bu, heç də zəruri deyil. Ona görə də ölkə iqtisadiyyatına lazım olan elmi cəhətdən əsaslandırılmış strateji inkişaf istiqamətləri müəyyən olunmalıdır. Misal üçün Hindistanın modernləşmə sahəsində əldə etdiyi nailiyyətlər aşağıdakı müddəalara əsaslanır:

- ❖ qloballaşma şəraitində xidmət sferasının, xüsusilə informasiya xidmətləri sahəsinin inkişafı;
- ❖ iqtisadi artıma xarici investisiyalar hesabına deyil, daxili resurslardan (*xüsusilə insan resurslarından*) səmərəli istifadə edilməsi hesabına nail olunması;
- ❖ xüsusilə ucuz işçi qüvvəsinə deyil, onun keyfiyyətinin inkişaf etdirilməsinə diqqətin yetirilməsi (*il ərzində 3,1 milyon bakalavr sərbəst ingilis dili biliyi alır*);
- ❖ dayanıqlı demokratik institutlar iqtisadi infrastrukturun yuxarıdan aşağı deyil, aşağıdan yuxarı qurulması;
- ❖ maliyyə bazarının və hüquqi sistemin daha şəffaf olması.

Modernləşdirmə siyasəti sahəsində Braziliyanın təcrübəsi də maraq doğurur. Belə ki, Braziliyada yüksək iqtisadi inkişaf tempinin əsasən milli gəlirin yenidən bölüşdürülməsi və kapitalın yığımı normasının artırılması hesabına əldə olunması əsas götürülmüşdür. Burada dövlətin milli və xarici kapitalla sıx əlaqəsinə önəm verilmişdir. İqtisadi inkişafda əsas rol dövlətə məxsus olmuşdur. Təkcə onu qeyd etmək kifayətdir ki, bütün kapital qoyuluşunun 50 faizi dövlətin payına düşürdü və bu vəsait əsasən iqtisadiyyatın baza və infrastruktur sahələrini və hasilat sənayesini əhatə edirdi. Milli kapital ənənəvi sahələrə, xarici kapital isə müasir və daha yüksək gəlirlilik sahələrinə yönəldilirdi. Eyni zamanda, strateji sahələrə ciddi dövlət nəzarəti həyata keçirilirdi.

Daxili və xarici konyuktura nəzərə alınaraq inkişafda sıçrayış yarada bilən aviasiya sənayesi, avtomobil sənayesi, silah istehsalı və ixracı, metallurgiya, kənd təsərrüfatı məhsullarının ixracı, kosmik proqram, enerji təminatı, avtomobil yolları şəbəkəsinin inkişafı iqtisadi siyasətdə prioritet olaraq müəyyən edilmişdir. Bu sahədə digər dövlətlərin təcrübələrinə istinadı artırmaq da mümkündür, əsas konsepsiya

ondan ibarətdir ki, strateji istiqamətlərin bu şəkildə seçimi iqtisadi sistemin balanslaşdırılmış inkişafına və rəqabətlilik (*xüsusilə regional*) mühitinin formalaşdırılmasına imkan verir [6, 7].

## 4.2.İnstitusional imkanlar və dövlət idarəçiliyinin prioritet istiqamətləri

Dövlətin iştirakı olmadan innovasiya sferasını təsəvvür etmək mümkün deyil. Dövlətin müvafiq institutları, o cümlədən normativ-hüquqi davranış norma və qaydalarını formalaşdırmaqla milli innovasiya sisteminin inkişafına təkan vermək olar. Əsası ötən əsrin 70-ci illərində Den Syaopin tərəfindən qoyulmuş Çinin modernləşdirmə təcrübəsi göstərir ki, ilkin illərdə qərb texnologiyasının şəkili dəyişdirilmiş formasına əsaslanan yanaşma hazırda dövlət tərəfindən investisiya fəaliyyəti üçün münbit institutsional şərait yaratmaqla yanaşı fundamental bilik istehsalına təkan verməklə özəl sektoru öz təhqiqatlarına əsaslanan texnologiyaların işlənib hazırlanmasına və bazar əsasında mənimsənilməsinə istiqamətlənib.

Burada dövlət modernləşdirmə prosesində "əsas oyunçu" olmaqla elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin maliyyələşdirmə mənbəyi rolunu oynayır və yenidən işləmələrinin istiqamətləri iqtisadi modernləşdirmədə əsas təşəbbüskar rolunu oynayır.

Diqqətdə saxlamalıyıq ki, sahibkarlıq ruhu, yeni çağırışlara açıqlıq, inam (*etibar*), risklərə və kooperasiyaya hazır olmadan, yəni insanların innovasiya mədəniyyəti olmadan innovasiya iqtisadiyyatı qurmaq mümkün deyil. Beynəlxalq təcrübə göstərir ki, təbii kapital bolluğu düzgün istifadə edilmədikdə insan kapitalını sıxışdırır, ən azı onun inkişafını zəiflədir. Bu əsasən onunla bağlıdır ki, bol təbii resurs aşağı ixtisaslı işçi qüvvəsinə hesablanmış hasilat sənayesinin inkişafına səbəb olmaqla yüksək təhsil səviyyəsinə malik işçi qüvvəsinə tələbi aşağı salır. Nəticədə təhsil səviyyəsi ilə əməyin ödənilməsi sistemi arasındakı asılılıq aşınmaya məruz qalır ki, bu da ailə təsərrüfatlarının təhsilə investisiya yatırmalarına (*həm pul və həm vaxt mənada*) antistimul yaradır.

## 5. Anti-böhran tədbirlərində aktiv vergi siyasəti

Dünyanın inkişaf etmiş ölkələrində baş verən maliyyə böhranına, iqtisadi tənəzzülə baxmayaraq Azərbaycanda real iqtisadi vəziyyətə uyğun, əsaslandırılmış dövlət siyasəti iqtisadi inkişafın təmin edilməsinin əsas hərəkətverici qüvvəsi olmuşdur. Sosial-iqtisadi inkişafın əldə edilməsində, iqtisadi aktivliyin və onun davamlı artımının saxlanılmasında, sahibkarlıq və investisiya fəaliyyətinin stimullaşdırılmasında büdcə-vergi siyasətinin rolunu xüsusilə qeyd etmək lazımdır.

Müasir maliyyə böhranı öz unikallığı ilə indiyə qədər olanlardan ciddi fərqlənir. Bu əsasən onunla bağlıdır ki, indiki maliyyə böhranı dalğa, struktur, kredit, fond və bank böhranlarının ənənəvi xüsusiyyətlərini özündə birləşdirir. Bu xüsusiyyətlərlə

yanaşı, müasir maliyyə böhranının digərlərindən qabarıq şəkildə fərqləndirici cəhəti də vardır ki, bu da iqtisadi münasibətlər sistemində "etibar böhranı"nın baş verməsidir. "Etibar böhranı" iqtisadi münasibətlər sisteminin iştirakçıları, iqtisadi agentlər və təsərrüfat subyektləri arasında bir-birinə olan etimadın (*etibarın*) itməsi, qarşılıqlı inamın zəifləməsi və gələcək üçün biznesin davam etdirilməsinə zəmanətin olmaması kimi başa düşülür. Bu baxımdan, zaman keçdikcə "Etibar böhranı"nın da daxil olduğu müasir maliyyə böhranının nəticəsi daha da dərinləşir, ona görə ki, "etibar böhranı" kommersiya agentləri və cəmiyyətin müxtəlif təbəqələrini tam əhatə edir, iqtisadi münasibətlərin deqradasiyasına və sonda dünya iqtisadiyyatının zərər görməsinə səbəb olur [7].

Artıq danılmaz fakt olaraq qəbul edilir ki, dəyişən iqtisadi münasibətlər sistemində "etibar böhranı" maliyyə sisteminin ən dağıdıcı tərkib hissəsinə çevrilmişdir. Nəticədə, bazar iştirakçıları özünə və bir-birilərinə olan inamlarını itirmişlər. Ümumiyyətlə istənilən böhrana qanuna uyğun təzahür kimi yanaşılmalıdır, yəni anomal hadisə kimi baxılmamalıdır. Mövcud böhran göstərdi ki, cari maliyyə sistemini kosmetik üsullarla tənzimləmək mümkün deyil və dünya maliyyə sisteminin yenidən qurulması zəruridir.

Böyük sistemlərin ümumi qanunauyğunluqlarına əsasən qlobal iqtisadiyyat böhran zamanı özündə sistemin bir faza vəziyyətindən digərinə keçid momentlərini əks etdirir. İstənilən sistemin dayanıqlılığı dedikdə, sistemli təhlil qanununa əsasən, həmin sistemdə özünütənzimləmə mexanizminin olmasıdır.

Böhranın yeni formalarının xarakterik xüsusiyyətlərini nəzərə alaraq səmərəli vergi siyasətinin həyata keçirilməsi, bir tərəfdən iqtisadi aktivliyi artırmaqla yeni iş yerlərinin açılmasına, digər tərəfdən isə əhalinin həyat səviyyəsinin yüksəlməsinə, yoxsulluğun səviyyəsinin azaldılmasına əlverişli şərait yaradır. Bu nöqteyi nəzərdən son illər ərzində iqtisadiyyatın daxili investisiyalar hesabına inkişafında və real ümumi daxili məhsulun artımında əldə olunan nəticələr dövlət büdcəsinin gəlir və xərclərinin səmərəli formalaşdırılmasına, o cümlədən vergi daxilolmalarının tam həcmdə səfərbər olunmasına zəmin yaratmışdır.

## 6.Aktiv vergi siyasəti - vergi sisteminə yeni yanaşma

Artıq beynəlxalq aləmdə "yaşıl vergi sistemi" anlayışı meydana gəlmişdir. Yaşıl vergi sisteminin əsas məqsədi yalnız ətraf mühiti qoruyan "yaşıl iqtisadi artımı" deyil, eyni zamanda əldə edilən gəlirlərin istehlak və investisiya arasında necə istifadə edilməsi imkanlarını da nəzərdə tutur. Vergi siyasətinin təkmilləşdirilməsinin digər istiqamətlərindən biri də məşğulluğun səviyyəsinin artırılması, yeni iş yerlərinin yaradılması və sosial-iqtisadi bərabərsizliyin tənzimlənməsidir. Beynəlxalq təcrübə göstərir ki, inkişaf etməkdə olan ölkələrdə aparılan islahatlar nəticəsində iqtisadi artım əhalinin gəlirlərə görə paylanmasında olan fərqləri gücləndirir. Lakin

aparılan vergi siyasəti nəticəsində bu fərqlər tənzimlənir və hər bir ölkə üçün əlverişli olan sosial-iqtisadi diferensiasiya həddi müəyyənləşdirilir.

Vergi siyasətinin təhlil edilməsi zamanı qarşıya qoyulan əsas məsələlərdən biri də iqtisadiyyatın vergi yükünün qiymətləndirilməsindən ibarətdir [8]. Vergi yükünün qiymətləndirilməsi zamanı iqtisadiyyatın mövcud vəziyyəti, onun quruluşu, xarici iqtisadi əlaqələri nəzərə alınmaqla yanaşı vergi yükünün struktur və konyunktur tərkib hissələri də qiymətləndirilməlidir.

Əgər dövlət büdcəsinə daxil olan vergilər dünya bazarındakı mövcud qiymət münasibətlərindən asılıdırsa, onda belə vergi daxilolmaları vergi yükünün konyunktur, əks halda isə struktur komponenti adlanır. Vergi gəlirlərinin struktur tərkib hissələri fundamental amillərdən - vergi qanunvericiliyindən, vergi dərəcələrindən asılı olmaqla iqtisadiyyatın sahəvi quruluşu ilə müəyyən olunur. Konyunktur komponent isə bilavasitə dünya bazarındakı mövcud qiymətlərin səviyyəsindən asılı olmaqla dəyişməyə meyillidir. Azərbaycan iqtisadiyyatının ixrac potensialında neft sektorunun payı yüksək olduğundan dünya bazarında neftin qiymətində baş verən dəyişikliklər vergi yükünə təsir göstərə bilər.

Dünya bazarında neftin qiymətində baş verən dəyişikliklər bir çox iqtisadi və siyasi amillərdən asılı olduğundan onun qiymətlərinin dinamikasını dəqiq proqnozlaşdırmaq mümkün deyildir. Bu isə vergi daxilolmalarının proqnozlaşdırılması üçün struktur komponentlərdən istifadə olunmasını zəruri edir. Dünya bazarında neftin qiymətindəki baş verən dəyişikliklər orta qiymətlərindən kəskin şəkildə fərqlənərsə, onda vergi yükündə olan dəyişikliklər (*vergi daxilolmalarının ÜDM-də xüsusi çəkisi*) ümumi vergi yükünə təsir göstərir.

Beləliklə, müasir idarəçilik modeli onu deməyə əsas verir ki, iqtisadi inkişaf sahəsində əldə olunan nailiyyətlər gələcəkdə iqtisadiyyatın daha da gücləndirilməsi və diversifikasiyası üçün möhkəm və əhatəli baza rolunu oynayır. Milli iqtisadiyyatda keçid dövrünün başa çatdığı, iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsinə başlanıldığı ərəfədə iqtisadi münasibətlərin tələblərindən irəli gələrək qeyri-neft sektorunun inkişafının daha da sürətləndirilməsi üçün aktiv vergi siyasətinin həyata keçirilməsi və stimullaşdırıcı vergi sisteminin tətbiqi olduqca vacibdir. Aktiv vergi siyasəti təkrar istehsalın genişləndirilməsinə, müasir texnologiyaların istifadəsinə, innovativ layihələrin reallaşdırılmasına, kapitalın və əmək resurslarının məhsuldarlığının artırılmasına, biznes mühitinin əlverişliliyinin daha da yüksəldilməsinə müvafiq şərait yaradacaqdır.

Bununla belə, qarşıya qoyulmuş strateji məqsədlərdən irəli gələrək iqtisadi inkişafın hazırkı mərhələsində vergi yükünün iqtisadiyyatın sektorları, iqtisadi agentlərin ayrı-ayrı kateqoriyaları üzrə paylanılmasının rasional mexanizminin hazırlanaraq tətbiq olunması mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan, vergi yükünün tədricən istehsaldan istehlaka keçirilməsi ilə istehsal, istehlak və istehsal amillərinin qiymətlərinin müvazinətliyinin təmin olunmasına nail olmaq mümkündür.

Eyni zamanda, aktiv vergi siyasəti müasir mərhələdə inkişaf aləti (*resursu*) olmaqla yanaşı, verginin fiskal funksiyalarını saxlamaqla, həm də məqsədlilik funksiyasını, yəni innovasiya fəaliyyətinin stimullaşdırılması funksiyasını icra edəcəkdir.

## 7. Nəticə

Qloballaşmanın və raqabətin son dərəcə kəskinləşdiyi müasir şəraitdə modernləşmə siyasətinin əsas prinsiplərindən biri kimi səmərəli vergi siyasətinin həyata keçirilməsi, günün ən aktual problemlərindəndir. Belə ki, dünya ölkələrində baş verən iqtisadi tərəqqi vergi siyasətinin də mütəmadi olaraq təkmilləşdirilməsini tələb edir. Belə bir şəraitdə modernləşmənin həyata keçirilməsi kompleks olaraq həyata keçirilməlidir. Yəni modernləşmə institusional, texnoloji və sosial istiqamətləri əhatə etməlidir.

Müxtəlif mənşəli sosial və siyasi amillər, sosial-iqtisadi diferensiasiya, əhalinin təhsil, səhiyyə, sosial müdafiə sahəsindəki fərqlər və eləcə də, dünya iqtisadiyyatında baş verən proseslər, qloballaşmanın sürətlənməsi cəmiyyətin formalaşmasına və onun iqtisadi davranışına  təsir etməklə aktiv vergi siyasətinin yeni modernləşdirmə prinsiplərinin tətbiq edilməsi zərurətini meydana çıxarır. Lakin eyni bir iqtisadi texnologiya və ya hər hansı bir iqtisadi modelin müxtəlif ölkələrdə fərqli, bəzi hallarda ziddiyyətli nəticələrə səbəb olması burada milli iqtisadi aspektlərin nəzərə alınmasını zəruri edir.

## Ədəbiyyat siyahısı:


1. Musayev A.F. (2004). Vergi siyasətinin iqtisadi problemləri. Bakı: 792 s.
2. Мау В.А. (2011). Экономическая политика 2010 года: в поисках инноваций. // «Вопросы Экономики».  №2. с. 4-21.[Mau V.A. (2011). 2010-cu ilin İqtisadi siyasəti: innovasiyalar axtarışında.// "İqtisadiyyat məsələləri".  №2. s. 4-21]
3. Экспертный институт - Инвестиционный климат в России. (2006). "Вопросы Экономики".  №5. с. 69-84. [Ekspert institutu - Rusiyada investisiya iqlimi. (2006). "İqtisadiyyat məsələləri".  №5. s. 69-84]
4. Петров Ю.А. (2010). Инновационный подход к развитию Российской налоговой системы (концептуальное обоснование с учетом итогов анализа ее реформирования в десятилетний и во всей постсоветской ретроспективах). «Российский Экономический журнал»  №6. с. 14-22. [Petrov Y.A. (2010). Rusiya vergi sisteminin inkişafına innovasion yanaşma (postsovet və on illik ərzində reformanın nəticələrinin təhlili nəzərə alınmaqla konseptual əsaslandırma)."Rusiya İqtisadi jurnalı", №6. s. 14-22].
5. Петров Ю.А. (2011). Инновационный подход к развитию Российской налоговой системы (концептуальное обоснование с учетом итогов анализа ее реформирования в десятилетний и во всей постсоветской ретроспективах). Окончание.  «Российский

Экономический журнал» №1. с. 3-16. [Petrov Y.A. (2011). Rusiya vergi sisteminin inkişafına innovasion yanaşma (postsovet və onillik ərzində reformanın nəticələrinin təhlili nəzərə alınmaqla konseptual əsaslandırma). "Rusiya İqtisadi jurnalı". №1. s. 3-16].
6. Мусаев А.Ф. (2011). Формирование налоговой системы как основного инструмента модели экономического развития Азербайджана. "Налоговые новости Азербайджана". №9. с. 43-53. [Musayev A.F. (2011). Azərbaycanın iqtisadi inkişaf modelinin əsas aləti kimi vergi sisteminin formalaşması. "Azərbaycanın vergi xəbərləri". №9. s. 43-53].
7. Griffith, Rachel, Daniel Sandler, and John Van Reenen. (1995). Tax Incentives for R&D. Fiscal Studies. №16. P 21-44. [Reyçel Qriffit, Daniel Sandler və Con Van Renen. (1995). ETTKİ üçün vergi güzəştləri. Maliyyə elmləri. 1995. №16. S 21-44].
8. Лукин Р.Д. (2005). Налоговые льготы как инструмент экономической политики государства. Москва. Финансы и статистика. 450 с. [Lukin R.D. (2005).Vergi güzəştləri dövlətin iqtisadi siyasətinin aləti kimi. Moskva. Maliyyə və statistika. 450 s.].

**Мусаев Акиф Фархад оглы**
доктор экономических наук, профессор, член-корреспондент НАНА

## Модернизация и активная налоговая политика
## Аннотация

*Цель исследования* – анализ формирования налоговой политики в целях регулирования развития экономики страны.

*Методология исследования* – системный подход, сравнительный анализ.

*Результаты исследования* – обоснована необходимость перехода от пассивной налоговой политики к активной как основного принципа модернизации экономики.

*Ограничения исследования* – роль активной налоговой политики в модернизации, а также модернизация ее самой требует более глубокого научного исследования, с учетом международного опыта.

*Практическая значимость исследования* – необходимость анализа пассивной налоговой политикив развитии экономики на определенном этапе, а также обоснование значимости перехода от пассивной налоговой политики к активной.

*Оригинальность и научная новизна исследования* – использование инновационных моделей в развитии концепции социальной и технологической модернизации.

**Ключевые слова:** *активная налоговая политика, пассивная налоговая политика, институциональная модернизация, технологическая модернизация, "зеленая налоговая система".*

**Musayev Akif Farhad oglu**
Prof. Dr., Corresponding Member of ANAS

## Modernization and active tax policy
## Abstract

*Purpose* – analysis of tax policy to guide the development of the economy.

*Design/methodology* – systematic approach, comparative analysis.

*Findings* – the necessity of the transition from a passive to an active tax policy, as a basic principle of economic modernization.

*Research limitations* – role of active tax policy in the modernization, as well as modernization of itself requires further research, given international experience.

*Practical implications* – analysis of the need of passive tax policy for economic development at a certain stage, and the reasons significance transition from a passive to an active tax policy.

*Originality/value* – use of innovative models in the development of the concept of social and technological development.

**Keywords:** *active tax policy, passive tax policy, institutional modernization, technological modernization, "green tax system".*

**JEL Classification Codes:** E62, H2, H21, H3, K34

Məqalə redaksiyaya daxil olmuşdur: 05.12.12.
Çapa qəbul olunmuşdur: 15.12.12.